Ədalət

**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

№ 28 (2062) 5 mart 2020-ci il

# "O dünyaya köçən dünyam..."

## Şahmar Əkbərzadəni xatırlayarkən

**(əvvəli ötən sayımızda)**

**Nahid Hacızadə daha sonra söhbətə qoşulduğunu, qarşısında əyləşmiş tanımadığı adamın çıxışına dəstək verdiyini vurğulayaraq yazır: "Xahişim budur ki, "Mərkəzi poçtxana" və "48 ölçülü qadın paltarı" şeirlərini tapıb oxuyun. Necə gözəl şeirlərdir. Adam qibtə edir o şeirlərin müəllifinə. O köpəkoğlu (bu ifadəyə görə Şahmarın ruhundan və oxuculardan dönə-dönə üzr istəyirəm-N.H.) gör necə incilər yaradıb. Məncə o şeirlərin hər ikisi şedevrdir...**

Qarşımdakı adamdan gözlədiyimdən tam fərqli sözlər eşitdim:

**-Nahid müəllim, sizə böyük hörmətim var,-dedi. - Başqası olsaydı, bəlkə də onunla ayrı cür danışardım. Sizin bacıoğlunuz Firuzla dostluğum da qabağımı kəsir..." Sən demə, təriflənən, həm də yaxşı mənada "Söyülən" şeirlərin müəllifi qarşıdakı adamın özü, yəni Şahmar imiş.**

Nahid müəllim məhz bu söhbəti xatırlayıb belə ürəkdən gülürdü.

Mən elə həmin anlarda Şahmarın hələ 1977-ci ildə yazdığı "Mərkəzi poçtxana" şeirindəki bu misraları xatırladım:

**İndeksi olmayan bu məktubları**
**Yalqız yuvalara çatdır bir təhər.**
**Həsrətim oranı isitsin barı,**
**Sahibi qürbətdən gələnə qədər.**

"Politra" verilişi ilə bağlı söhbət əsnasında Nahid Hacızadə ciddiləşib dedi:

**-Bilirsən ki, elə mən də Şahmarın yaradıcılığını bəyənirəm. Tez-tez onu verilişlərə dəvət edirik. Amma bu veriliş elə adından göründüyü kimi, rəssamlar, heykəltəraşlar haqda olacaq. Axı Şahmar...**

Bildim ki, nə deyəcək. Ona görə də tez müdaxilə elədim:

**-Əvvəla, Şahmar rəssamlığı sevən, duyan adamdır. İkincisi də, o, sözlə rəsm çəkir, heykəl yapır...**

Tezliklə Şahmar "Politra" verilişinin aparıcısı oldu. Hətta, arada bir-birimizə zarafatla deyərdik: "Dədə, "Politra"dan "pollitrə" keçmək pis olmazdı..." Bu söhbətdən çox-çox sonralar Nahid müəllim mərhum dostumuz Şahmar haqda yazdığı xatirələrə belə bir başlıq qoymuşdu: "O, sözdən heykəl yonurdu..."

Şahmar gur səsə, aydın nitqə, maraqlı jestikulyasiyaya malik bir adam idi. Ehtirasla şeir deməyi, gözəl rəqs etməyi vardı. Biz dostlar adətən məclislərdə, yığıncaqlarda Şahmarı masabəyi seçərdik.

Şahmar mənim toyumun da tamadası, daha doğrusu yüksək səviyyəli "aparıcısı" olmuşdu. Yadımdadır, qohum-qardaşın çoxu sonralar söhbət düşəndə deyərdilər ki, görəsən, Şahmar müəllim bizim toyun da tamadası olmağa razılıq verərmi? Mən gülüb deyərdim ki, axı o kişi siz deyən tamadalardan deyil, şairdir, yalnız dost toyunun aparıcısı ola bilər.

"Məclis aparıcısı" demişkən, bu sətirləri yazarkən bir az gülməli, bir az da kədərli bir hadisəni də xatırlayıram. Bir dəfə redaksiyamıza bir qadın gəldi. Mənimlə əl verib görüşdü, Şahmarla öpüşdü. Az sonra Şahmar həmin xanımla bizi tanış etdi. Əvvəlcə məni özünəməxsus təntənəli qaydada, tərif dolu ibarələrlə xanıma təqdim etdi. Sonra üzünü mənə tutub bir qədər rəsmi tonda dedi:

**-Firuz müəllim, indi də sizə bu xanımın kim olduğunu deyim. Nərgiz xanım Üzeyir Hacıbəyov muzeyinin yeni direktorudur, mərhum dostumuz Ramazan Xəlilovun qızıdır... Bəlkə də haqqında eşitmisiz.**

Ta artıq təqdimata ehtiyac yox idi. Mən hələ 70-ci illərdə Nərgiz, onun gözəlliyi, riskli hərəkətləri, o dövr üçün qeyri-ari olan ekstravaqant geyimləri haqda çox eşitmişdim. Hətta, indiki "Fontanlar meydanındakı" gözəl "Nərgiz" yay kafesinin belə onun adını daşıdığını bilirdim. Artıq aradan illər keçmişdi. Nərgiz paiz çiçəyi kimi bir qədər solsa da hələ təravətini itirməmişdi. O, nikbin bir qadın təsiri bağışlayırdı. Nəhayət, xanım redaksiyaya gəlişinin məqsədini bildirdi. O, bizi atasının xatirə gününə, daha doğrusu, vəfatının ildönümünə dəvət etməyə gəlibmiş. Biz razılıq verdik. Axşam Şahmarla hotellərdən birində (səhv etmirəmsə "Bakı" mehmanxanasında) keçirilən mərasimə getdik. Məclisdəkilərin əksəriyyəti ruslar və yəhudilər idi. Və təbii ki, həm mərasim iştirakçıları, həm də o mərasimi idarə edənlər rus dilində danışırdılar. Şahmar da mərhum haqqında rus dilində bir neçə kəlmə söz dedi. Yeri gəlmişkən, onu da qeyd edim ki, Şahmar Əkbərzadə Rus dili universitetini bitirmişdi, bu dili də çox yaxşı bilirdi. Danışanların hamısı Ramazan müəllimin hörmət-izzətindən, əsl müsəlman olmağından söz açırdılar... Məclis yekunlaşmaq üzrə idi. Dilim dinc durmadı. Üzümü Şahmara sarı tutub dedim:



**-Dədə, burada hamı mərhum Ramazan kişinin müsəlmanlığından danışır. Amma... Bu necə müsəlmanlıq oldu ki, məclisdə Qurandan bir ayə belə səslənmədi?**

Şahmar mənim nə dediyimi tezcə anlayıb məclis aparıcısından söz istədi. Onun uca, gur səslə dediyi "Yasin" surəsi hamını ovsunlamışdı. Hətta, Şahmar sözünü bitirəndən sonra bir neçə adam yaxınlaşıb ona öz təşəkkürünü izhar etdi...

Şahmar uşaqla uşaq, böyüklə böyük idi. Redaksiyaya şikayətə gələn yaşlı adamları ən çox o qəbul edər, onların dərdinə nə vasitə ilə olursa-olsun kömək etməyə çalışardı.

Xatırlatma. Bir dəfə Şahmarın yanına bir şikayətçi kişi gəlmişdi. Bu adamın şikayəti özünün dediyi kimi "ad qoyan" idarədən idi. Məsələ burasındadır ki, şikayətçi öz oğluna babasının adını qoymaq istəyirmiş, amma idarədə buna razılıq verməyiblər. Səbəb də bu olub ki, kişinin babasının adı adlar üçün nəzərdə tutulmuş kitabçada tapılmayıb.

Kişi dərdini danışaraq deyirdi:

**-Mənim babamın adı Əliş olub. Onlarsa mənə dedilər ki, "bu kitabda Əliş adı yoxdur, bəlkə Əli, Vəli, lap elə Alik adını seçəsən". Axı bu necə ola bilər? Bəyəm mən öz oğluma öz babamın adını verə bilmərəm?**

Şahmar dəstəyi götürüb zəng vurdu. İdarənin müdirinə şikayətçinin arzusunu bildirdi. Deyəsən, müdir deyilənlə razılaşmadı. Belə olan təqdirdə Şahmar əsəbi şəkildə dəstəyin o başındakı adama dedi:

**-Bura bax, siz Ləmbəranski familiyalı adam eşitmisiz? Ay sağ olun... Düz deyirsiz, vaxtilə Bakının rəhbəri olub. Bəli, məşhur adamdır. Deməli, hətta onunla görüşmüsüz də. Nə gözəl. Bəs o kişinin adı nə olub? Maraqlanmamısız? Ay yoldaş müdir, bilin və agah olun ki, Ləmbəranskinin adı Əlişdir. Allah o kişiyə ömür versin. Bəli, bax mənim yanımdakı bu şikayətçi də öz övladına öz babasının adını vermək istəyir... Yox ey, bunun babası o Əliş yox, başqa Əliş olub. İndi necə danışaq, razılıq verirsiz, ya qəzetdə bu barədə bir felyoton hazırlayaq?**

Müdir şikayətçinin tələbini yerinə yetirdi. Amma şahmar özünəməxsus qayğı hissilə şikayətçiyə üz tutub dedi:

**-İşin düzəldi. Əliş, əlbəttə ki, yaxşı addır. Amma gələcəkdə o biri nəvənə daha müasir ad qoy. Ad tapa bilməsən gələrsən yanıma.**

Doğrudan da tanış bilişləri yeni doğulan uşaqlarına ad qoymaqda tez-tez Şahmara müraciət edərdilər...

Yeri gəlmişkən, Şahmar bir çox şairlərin götürdüyü təxəllüslərə xüsusi diqqət yetirərdi: "Dədə, ədəbiyyatımızda ən uğurlu təxəllüs Səməd Vurğunundur. "Vurğun..." Fikir verirsən, necə gözəl səslənir. Həm də təmiz türkcəmizdədir... Bəxtiyar müəllimə hərdən zarafatla deyirəm ki, gəl bu "zadə"ləri ataq... Bəzi cavan şairlərimizin götürdüyü təxəllüs də mənim çox xoşuma gəlir. Bax, məsələn, Əlisəmid Kür, Murad Köhnəqala, Ayaz Arabaçı, Akif Əhmədgil, Qulu Ağsəs... Hamısı yenidir, təzədir... Əslində bunlar heç təxəllüs də deyil, yurd-yuva adlarıdır... Arabaçı kəndi Gədəbəydə, Köhnəqala kəndi Tovuzdadır. Elə deyilmi, dədə? Mən əvvəllər elə bilirdim ki, "Ağsəs" Qulunun götürdüyü təxəllüsdür. Sən demə, bu, mənim yerlimin doğmaca atasının adı imiş... Xoşbəxtlikdən bu uşaqların çoxu istedadlıdır..."

**(ardı növbəti sayımızda)**

**Firuz Mustafa**



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR